**AZƏRBAYCAN RESPUBLİKASININ**

# NAZİRLƏR KABİNETİ

## Q Ə R A R

**№ 562**

**Bakı şəhəri, 15 dekabr 2017-ci il**

**“Azərbaycan Respublikasının Müəllif Hüquqları Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 6 sentyabr tarixli 1593 nömrəli Fərmanının icrası ilə əlaqədar Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarının və onların struktur elementlərinin ləğv edilməsi barədə**

“Azərbaycan Respublikasının Müəllif Hüquqları Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 6 sentyabr tarixli 1593 nömrəli Fərmanının 3.3-cü bəndinin icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **QƏRARA ALIR:**

1. “Azərbaycan Respublikası Müəllif Hüquqları Agentliyi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1993-cü il 10 sentyabr tarixli 488 nömrəli qərarı ləğv edilsin.

2. “Azərbaycan Respublikası Müəllif Hüquqları Agentliyinin strukturuna daxil olmayan tabeliyindəki qurumların Siyahısı”nın təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2012-ci il 6 yanvar tarixli 1 nömrəli qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 1, maddə 25) ləğv edilsin.

3. “Azərbaycan Respublikası Müəllif Hüquqları Agentliyinin kollegiyasının tərkibi haqqında” Azərbaycan Respublikası Nazirlər

Kabinetinin 2012-ci il 17 aprel tarixli 84 nömrəli qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 4, maddə 394; 2016, № 9, maddə 1572) 1-ci hissəsi ləğv edilsin.

**Azərbaycan Respublikasının**
**Baş naziri** **Artur Rasi-zadə**